| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | CHEM 278, Üzvi kimya 2, 6 AKTS | |
| | **Departament** | Kimya və kimya mühəndisliyi | |
| | **Proqram** | Bakalavr | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim(lər)** | Elm Dr. dos. Rəvan Rəhimov | |
| | **E-mail** | revan_chem@mail.ru | |
| | **Telefon** | | |
| | **Mühazirə otağı/ cədvəl** | Bakıxanov korpusu, Otaq 302 | |
| | **Məsləhət saatları** | Bakıxanov korpusu, Şənbə 17:00-18:00 | |
| **Prerekvizitlər** | Qeyri-üzvi kimya | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Əsas dərsliklər<br>1. A.M.Məhərrəmov; M.N.Məhərrəmov, Üzvi kimya. Bakı: Bakı Universiteti, 2006.- 538 s.<br>2. S.F. Qarayev, U.B. İmaşev, G.M. Talıbov. Üzvi kimya. Bakı, 2003. 472 səh.<br>3. Leroy G. Wade, Jan W. Simek. Üzvi kimya 9-cu nəşr. **2023** Azərbaycan dilində<br>4. S. Novruzov. Üzvi kimya praktikumu. Bakı: Təhsil, **2015**. 266 səh.<br>Əlavə ədəbiyyat<br>1. S.F. Qarayev, G.M. Talıbov, A.Q. Həbibova, R.Ə. Teymurova. Zərif üzvi sintezin prinsipləri. Bakı: ADNA, 1998. 122 səh.<br>2. S.F. Qarayev. Üzvi kimya suallar və cavablarda. Bakı : ADNA,1999. 240 səh. | | |
| **Kursun veb saytı** | https://az.wikipedia.org/wiki/%C3%9Czvi_kimya | | |
| **Tədris metodları** | Mühazirə | | **x** |
| | Praktiki məşğələlər | | **x** |
| | Laboratoriya işləri | | **x** |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | Aprel | 30 |
| | Quiz | May ayın ilk həftəsi | 10 |
| | Fəallıq | May ayın sonunadək | 10 |
| | Prezentasiya | May ayın sonunadək | 10 |
| | Final imtahanı | İyun | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Üzvi kimya tərkibində karbon atomu olan kimyəvi birləşmələri öyrənən bir elmdir. Üzvi kimya canlı aləmdə (bitki, heyvan, insan) yayılmış karbon atomunun digər elementlərlə əmələ gətirdiyi birləşmələri öyrənən bir elmdir. Üzvi birləşmələri əmələ gətirən əsas dörd elementdir (O, H, N, C). Üzvi kimyanın əsas məqsədi canlı orqanizmi təşkil edən əsas üzvi birləşmələrin tərkibini öyrənmək və yeni dərman preparatları və yeni əmələ gələn və müalicəsi mümkün olmayan xəstəliklərin müalicəsini tapmaqdır. Üzvi kimya-2-in əsas bölmələri: Üzvi maddələrin kimyəvi quruluşu. Karbohidrogenlər, onların növləri, xarakteristikası, alınması və xassələri. Halogenli karbohidrogenlər. Spirtlər. Sadə efirlər. Aldehidlər və ketonlar.Karbon turşuları. Mürəkkəb efirlər. | | |
| **Kursun məqsədi** | **Üzvi kimya-2** fənninin əsas məqsədi tələbələrə üzvi birləşmələrin funksional qruplar üzrə kimyəvi xassələrini və reaksiya mexanizmlərini sistemli şəkildə öyrətməkdir. Fənn çərçivəsində reaksiyaların gedişinin elektron təsirlər, sterik amillər və struktur–xassə əlaqələri baxımından izahı təmin edilir. Kurs tələbələrdə üzvi maddələrin sintezinin planlaşdırılması, uyğun reagent və şəraitin seçilməsi bacarıqlarını formalaşdırır. Eyni zamanda analitik və tənqidi düşünmə, reaksiyaların nəticələrinin proqnozlaşdırılması vərdişləri inkişaf etdirilir. Bu biliklər tələbələrin biokimya, | | |

| | | | |
|---|---|---|---|
| | polimer kimyası, əczaçılıq və qida kimyası kimi ixtisas fənlərini mənimsəməsi üçün möhkəm elmi baza yaradır.<br>Kursun spesifik məqsədləri<br>– Tələbələrə akademik yardım göstərmək, onların potensialının reallaşdırılması imkanlarını artırmaq<br>– Tələbələrin fəallığına dəstək vermək<br>– Kimya fənninin əsaslarının anlaşılmasını inkişaf etdirmək<br>– Tələbələrin növbəti semestrdə "Neft kimya" kursunu daha yaxşı mənimsəməsi üçün özül yaratmaq | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Fənnin tədrisindən sonra tələbələr aşağıdakıları bacarmalıdır:<br>✓ Üzvi birləşmələrin əsas funksional qruplarının kimyəvi xassələrini və onların reaksiyalarını izah edə bilir.<br>✓ Üzvi reaksiyaların mexanizmlərini ($SN_1$, $SN_2$, $E_1$, $E_2$, elektrofil və nukleofil əvəzlənmə və qoşulma reaksiyaları) elektron təsirlər və sterik amillər əsasında şərh edir.<br>✓ Struktur–xassə əlaqələrini nəzərə alaraq üzvi birləşmələrin reaktivliyini və reaksiyaların mümkün məhsullarını proqnozlaşdıra bilir.<br>✓ Verilmiş məqsədə uyğun üzvi sintez ardıcıllığını planlaşdırır və uyğun reagentləri seçir.<br>✓ Üzvi reaksiyalarda yan reaksiyaları və məhdudiyyətləri təhlil edərək optimal şəraiti müəyyənləşdirir.<br>✓ Alınmış nəzəri bilikləri biokimya, polimer kimyası, əczaçılıq və qida kimyası sahələrində tətbiq edə bilir. | | |
| **Tədris siyasəti və davranış** | Aktivlik/Fəallıq<br>Sinif müzakirələrində fəal iştirak etmək, suallar vermək və qrup fəaliyyətlərinə töhfə vermək sizin mürəkkəb anlayışlar haqqında düşüncələrinizi artıra bilər. Bəzi şübhələri aydınlaşdırmağa, fikir mübadiləsi aparmağa, tələbələrdən və müəllimdən öyrənməyə imkan verir.<br>Quiz<br>Quiz müəllimlərə tələbələrin əsas anlayışlar və mövzuları başa düşmələrini ölçməyə kömək edən qiymətləndirmə formasıdır. Onlar tələbələrin mühazirələrdə və ya məşğələdə təqdim olunan materialı qavrayıb-qavramadıqları haqqında məlumat əldə etmək üçündür. Quiz yazılı formada keçirilir. Açıq suallar çətinlik dərəcəsindən asılı olaraq 1 və ya 2 ballıq olur. Quiz cəmi 10 bal ilə qiymətləndirilir.<br>Prezentasiya<br>Üzvi kimya-2 fənnindən təhsil alan tələbələr öyrəndikləri bölmələr üzrə bilik və bacarıqlarını təqdimatlar şəklində nümayiş etdirirlər. Dərs zamanı qrup işi və təqdimatlarla məşğul olmaq tələbələrin gələcək karyeralarına birbaşa ötürülə bilən bacarıqların inkişafına kömək edir. Tələbələr verilmiş mövzu üzrə axtarış aparır və əldə etdikləri məlumatlar əsasında 10-15 dəqiqəlik təqdimatla çıxış edir. Çıxışdan sonra həmin mövzu üzrə suallar verilir. Həm təqdimatı, həm də suallara cavabı yüksək olanda maksimum bal (10) ilə qiymətləndirilir.<br>Tələbənin kursu başa vurması 60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir.<br>Pozuntu halları Aralıq və son imtahanlarda mövcud qaydaların pozulması (köçürmə cəhdləri və digər qanunsuz hərəkətlər ) hallarında tələbənin imtahan işi ləğv olunur .<br>Dərslərdə davranış Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri – etik davranışa qətiyyən yol verilmir. Tələbə dərsdə ən fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır . | | |

| **Həftə** | **Gün** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1 | | Doymamış aldehid və ketonlar | [1] s.4-9, [3] s.1137 |
| | | Karbon turşular. Karbon turşuların duzları | [1] s.4-9, [3] s.1002 |
| 2 | | Anhidridlər və halogenanhidridlər | [2] s.10-19, [3] s.1043 |

| | | | |
|---|---|---|---|
| | | Amidlər və nirtillər. Mürəkkəb efirlər. | [2] s.10-19, [3] s.1028 |
| 3 | | Laboratoriya işi. Çalışmaların həlli | [1] s.10-45 |
| | | Doymamış turşular. İkiəsaslı karbon turşuları | [1] s.10-45, [3] s.1085 |
| 4 | | Nitro birləşmələr | [1] s. 46-74, [3] s. 84 |
| | | Aminlər, diaminlər. Diazobirləşmələr. | [1] s. 46-74, [3] s. 97 |
| 5 | | Laboratoriya işi. Çalışmaların həlli | [2] s. 70-71; 74-84 |
| | | Hidroksiturşular. Oksoturşular | [1] s. 75-77, [3] s.939 |
| 6 | | Asetosirkə efiri. | [1] s. 75-77, [3] s.1147 |
| | | Karbohidratlar.Monosaxaridlər. | [1] s. 88-96, [3] s.1172 |
| 7 | | Oliqosaxaridlər. | [1] s. 88-96, [3] s.1198 |
| | | Polisaxaridlər | [1] s. 97-105, [3] s.1137 |
| 8 | | Zülallar | [1] s. 97-105, [3] s.1203 |
| | | Laboratoriya işi. Çalışmaların həlli | [2] s. 78-89 |
| 9 | | Aminturşular | [1] s. 106-137, [3] s.1226 |
| | | Aromatik karbohidrogenlər | [1] s. 106-137, [3] s.764 |
| 10 | | **Aralıq imtahan** | |
| | | Seminar. Çalışmaların həlli | [1] s. 138-163 |
| 11 | | Difenil və onun törəmələri. | [2] s. 10-20, [3] s.1137 |
| | | Naftalin. Antrasen. Fenantren | [2] s. 10-20, [3] s. 787 |
| 12 | | Aromatik halogenli birləşmələr. Aromatik sulfoturşular | [2] s. 10-20, [3] s.1149 |
| | | Aromatik nitrobirləşmələr | [2] s. 10-20, [3] s.813 |
| 13 | | Aromatik aminlər. Aromatik diazo- və azobirləşmələr | [2] s. 10-20, [3] s.951 |
| | | Fenollar. Iki- və üçatomlu fenollar. | [2] s. 10-20, [3] s.856 |
| 14 | | Laboratoriya işi. Çalışmaların həlli | [1] s. 138-163 |
| | | Aromatik aldehid və ketonlar | [1] s. 138-163, [3] s.975 |
| 15 | | Aromatik aminturşular | [1] s. 138-163, [3] s.1222 |
| | | Aromatik polikarbon turşuları | [1] s. 138-163, [3] s.1005 |
| | | **Final imtahanı** | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.